# SEÇKİLƏRİN MONİTORİNQİ VƏ DEMOKRATİYANIN TƏDRİSİ MƏRKƏZİ

## Siyasi Motivli Həbslərə Dair İllik Fakt Xülasə – 2023















Seçkilərin Monitorinqi Demokratiyanın Tədrisi
SMDT
Election Monitoring Democracy Studies

## I. Giriş

Seçkilərin Monitorinqi və Demokratiyanın Tədrisi Mərkəzi (SMDT) Azərbaycanda siyasi hüquqların pozulması hallarına dair alternativ və açıq mənbələrdən toplanmış, habelə hüquq müdafiə təşkilatları və ictimai-siyasi təşkilatların yaydığı məlumatlar əsasında fakt-xülasə hazırlayıb.
SMDT təəssüflə bildirir ki, Azərbaycanda mülki və siyasi hüquqlarının müdafiəsi sahəsində illərdir davam edən siyasi böhran 2023-cü ildə daha da dərinləşib.

2023-cü il ərzində siyasi motivlərlə təqiblərə məruz qalan şəxslərin cinayət məsuliyyətinə cəlb olunması halları artıb. Cinayət məsuliyyətinə cəlb olunan şəxslərin əksər hissəsi ənənəvi olaraq, Cinayət Məcəlləsinin 234.4.3-cü (satış məqsədilə külli miqdarda narkotik maddə əldə etmə, daşıma, saxlama) maddəsi ilə ittiham olunub.
İl ərzində, həmçinin siyasi motivli inzibati həbs hallarının sayı artıb. İnzibati qaydada həbslərlə bağlı geniş tətbiq olunan ittiham İnzibati Xətalar Məcəlləsinin 510-cu (xırda xuliqanlıq) maddəsi, 535-ci (polisin qanuni əmrinə tabe olmama) və 388-1.1-ci (İnternet informasiya ehtiyatının və onun domen adının sahibi və ya informasiya-telekommunikasiya şəbəkəsinin istifadəçisi tərəfindən internet informasiya ehtiyatında yayılması qadağan edilən informasiyanın yerləşdirilməsi) maddələri olub.

SMDT siyasi təqiblərə və həbslərə məruz qalan şəxslərin əsasən ictimai fəallar, sosial media istifadəçiləri, jurnalistlər, siyasi partiya və hərəkatların təmsilçiləri, o cümlədən dini icma fəalları olduğunu təsnif edib.

## II. Siyasi motivli təqiblərin təsnifatı

### *1) Cinayət Məsuliyyətinə cəlb olunanlar*

Müxtəlif ictimai qruplar və hüquq-müdafiə təşkilatlarının məlumatları göstərir ki, 2023-cü il ərzində siyasi motivlərlə barəsində cinayət işi açılan şəxslərin sayı 85 nəfər olub. Onlar Cinayət Məcəlləsinin aşağıdakı maddələri üzrə ittiham olunaraq, saxlanılıblar:

a) Cinayət Məcəlləsinin 234.4.3-cü (satış məqsədilə külli miqdarda narkotik maddə əldə etmə, daşıma, saxlama) maddəsi - 67 nəfər;
b) Cinayət Məcəlləsinin 221.3-cü (xuliqanlıq - silahdan və ya silah qismində istifadə olunan əşyalardan istifadə edilməklə zərər çəkmiş şəxsə zor tətbiq olunması) maddəsi - 1 nəfər;
c) Cinayət Məcəlləsinin 178.3.2-ci (külli miqdarda ziyan vurmaqla törədilmiş dələduzluq), 1 nəfər 126.2.4-cü (ümumi təhlükəli üsulla, xuliqanlıq niyyətilə qəsdən sağlamlığa ağır zərər vurma), 1 nəfər 182.2.2 (hədə-qorxu ilə tələb etmə – təkrar törədildikdə) maddəsi - 3 nəfər;
d) Cinayət Məcəlləsinin 182.2.4-cü (hədə-qorxu ilə tələb etmə, xeyli miqdarda əmlak əldə etmək məqsədi ilə törədildikdə) maddəsi – 2 nəfər,

e) Cinayət Məcəlləsinin 204.3.1 (saxta pul və ya qiymətli kağızlar hazırlama, əldə etmə və ya satma mütəşəkkil dəstə tərəfindən törədildikdə) maddəssi - 2 nəfər,
f) Cinayət Məcəlləsinin 167-3.1-ci (dini ekstremist materialları hazırlama, saxlama, yayma və ya bu əməlləri maliyyələşdirmə) maddəsi - 1 nəfər,
g) Cinayət Məcəlləsinin 263.1 (yol hərəkəti və nəqliyyat vasitələrinin istismarı qaydalarını pozma, ehtiyatsızlıqdan zərərçəkmiş şəxsin sağlamlığına az ağır və ya ağır zərər vurduqda) maddəsi - 1 nəfər,
h) Cinayət Məcəlləsinin 264-cü (hadisə yerindən qaçma), 1 nəfər 320.1-ci (rəsmi sənədləri, dövlət təltiflərini, möhürləri, ştampları, blankları saxtalaşdırma, qanunsuz hazırlama və ya satma) maddəsi - 1 nəfər,
i) Cinayət Məcəlləsinin 320.2-ci (bilərəkdən saxta sənədlərdən istifadə etmə) maddəsi - 1 nəfər,
j) Cinayət Məcəlləsinin 228.4-cü (qanunsuz olaraq qaz silahını, soyuq silahı, o cümlədən soyuq atıcı silahı əldə etmə, satma və ya gəzdirmə) maddəsi - 1 nəfər,
k) Cinayət Məcəlləsinin 221.3 (silah və ya silah qismində əşyadan istifadə etməklə xuliqanlıq) maddəsi - 1 nəfər,
l) Cinayət Məcəlləsinin 206.3.2. (qabaqcadan əlbir olan bir qrup şəxs tərəfindən törədildikdə qaçalmalçılıq) maddəsi - 6 nəfər;.

**Azərbaycan Xalq Cəbhəsi Partiyası fəallarının həbsi**

Fevralın 7-də Azərbaycan Xalq Cəbhəsi Partiyasının (AXCP) Salyan təşkilatının sədri Əlizamin Salayev saxlanılıb. O, Cinayət Məcəlləsinin 221.3 (silah və ya silah qismində əşyadan istifadə etməklə xuliqanlıq) maddəsilə ittiham olunub. Cinayət işinin materiallarında iddia olunur ki, AXCP fəalı Natiq Süleymanov adlı şəxsə bıçaqla xəsarət yetirib. Əlizamin Salayev ittihamı qəbul etmir. Onun sözlərinə görə, fevralın 6-da axşam saatlarında "Lökbatan dairəsi" adlanan ərazidə yaşadığı Salyan rayonuna qayıtmaq üçün yol kənarında maşın gözləyərkən tanımadığı bir nəfərin söyüş söyərək, ona tərəf gəldiyini görüb. Həmin şəxs qəfildən əlini cibinə salıb bıçaq çıxarıb. Bu zaman baş verənlərin təxribat olduğunu anlayıb və onu itələyib uzaqlaşmaq istəyəndə ətrafdan xeyli adam çıxaraq, onu saxlayıblar. 2023-cü ilin 22 mayında Qaradağ rayon Məhkəməsi Əlizamin Salayevə 4 il azadlıqdan məhrumetmə cəzası verib.

İyulun 26-da Azərbaycan Xalq Cəbhəsi Partiyasının (AXCP) Təşkilat şöbəsinin müdir müavini Elxan Əliyev saxlanılıb. Ona qarşı Cinayət Məcəlləsinin 178.3.2 (dələduzluq, külli miqdarda ziyan vurmaqla törədildikdə), 320.1 (hüquq verən rəsmi sənədi istifadə etmək məqsədi ilə qanunsuz hazırlama) və 320.2-ci (bilə-bilə saxta sənədlərdən istifadə etmə) maddələri ilə cinayət işi başlanılıb.

Avqust ayında AXCP fəalı Elbəy Kərimli həbs olunub. AXCP bildirir ki, Kərimli avqust ayının sonunda həbs olunsa da, o, bu barədə xəbəri yalnız oktyabrın 24-də partiya yoldaşlarına çatdıra bilib. Cinayət Məcəlləsinin 234.4.3-cü (satış məqsədilə külli miqdarda narkotik əldə etmə, daşıma, saxlama) maddəsi ilə həbs olunub və haqqında 4 aylıq həbsqətimkan tədbiri seçilib. Elbəyi Kərimli ittihamları qəbul etmir.

Noyabrın 28-də AXCP üzvü Elnur Hasan Bakının Babək prospektində yerləşən avtomobil

bazarında olarkən mülki geyimli şəxslər tərəfindən saxlanılıb. O, Cinayət Məcəlləsinin 234.4.3-cü maddəsilə (külli miqdarda narkotik maddənin qanunsuz dövriyyəsi) ittiham olunsa da, AXCP rəsmiləri bildirib ki, fəalın saxlanılması onun sosial şəbəkələrdə tənqidi çıxışları ilə bağlıdır.

**Söyüdlü kəndində etirazlara görə həbs olunanlar**

İyunun 20-də Gədəbəy rayonunun Söyüdlü kənd sakinləri kəndin ərazisindəki qızıl mədənindən axıdılan turşu qalıqlarının toplanması üçün süni gölməçə qurulmasına etiraz ediblər. Aksiya zaman əraziyə polis qüvvələri yeridilib. Sosial şəbəkələrdə yayılan videolardan görünür ki, polislər əhaliyə qarşı sərt davranıb, gözyaşardıcı qazdan istifadə edərək aksiyanı dağıdıb. Ancaq etiraz aksiyasına növbəti iki gün ərzində cəhd ediblər. Bundan sonra Söyüdlü kəndinə giriş-çıxış məhdudlaşdırılıb.

İyunun 22-də kənd sakini Çoşqun Musayev gecə saatlarında saxlanılıb. O, Cinayət Məcəlləsinin 234.4.3-cü (külli miqdarda narkotik maddənin qanunsuz dövriyyəsi) maddəsi ilə ittiham olunub.

İyunun 24-də etiraz aksiyası zamanı etirazçıların qaldırdıqları plakatların və bannerlərin hazırlandığı poliqrafiya müəssisəsinin sahibi Habil İsmayılov həbs olunub. O, Cinayət Məcəlləsinin 234.4.3-cü (satış məqsədilə narkotik əldə etmə, daşıma, saxlama) maddəsilə ittiham olunub.

**İctimai fəalların həbsi**

İyulun 4-də keçmiş depudat, ictimai fəal Nazim Bəydəmirli həbs olunub. Ona qarşı Cinayət Məcəlləsinin 182.2.4-cü (hədə-qorxu ilə tələb-etmə – xeyli miqdarda əmlak əldə etmək məqsədilə törədildikdə) və 182.2.2-ci (hədə-qorxu ilə tələb etmə – təkrar törədildikdə) maddələrilə ittiham irəli sürülüb. Ancaq o, ittihamların heç birini qəbul etmir, özünü "ekologiya məhbusu" sayır. Nazim Bəydəmirli Gədəbəyin Söyüdlü kəndində baş vermiş etirazlarla əlaqələndirilərək həbs olunduğunu deyir.

Sentyabrın 19-da ictimai fəal Rail Abbasov saxlanılıb. Fəala qarşı Cinayət Məcəlləsinin 178.3.2-ci maddəsilə (külli miqdarda ziyan vurmaqla törədilmiş dələduzluq) ittiham irəli sürülüb və sentyabrın 20-də Nəsimi Rayon Məhkəməsi onu 4 ay müddətinə həbs edib. Rail Abbasov ittihamı qəbul etmir və həbsdə olan insan hüquqları fəalı Bəxtiyar Hacıyevi aktiv müdafiədən uzaqlaşdırmaq üçün həbs edildiyini bildirir.

Sentyabrın 22-də ictimai fəal Ruslan Vahabov saxlanılıb. O, Cinayət Məcəlləsinin 234.4.3-cü (satış məqsədilə narkotik əldə etmə, daşıma, saxlama) maddəsilə ittiham olunaraq barəsində 4 aylıq həbs qətimkan tədbiri seçilib. İctimai fəal ittihamları qəbul etmir və həbsinin sosial şəbəkədəki statusları ilə əlaqəli olduğunu deyib.

Oktyabrın 11-də ictimai fəal Zəka Mirağayev həbs olunub. Ona qarşı Cinayət Məcəlləsinin 234.4.3-cü (qanunsuz olaraq narkotik vasitələri, psixotrop maddələri və ya onların prekursorlarını hazırlama, istehsal etmə, əldə etmə, saxlama, daşıma, göndərmə və ya satma, külli miqdarda törədildikdə) maddəsi ilə ittiham irəli sürülüb və barəsində Səbail rayon Məhkəməsi 4 ay həbs qətimkan tədbiri seçib. Mirağayev özünü təqsirli bilmir. O, bildirib ki,

həbsi Daxili İşlər Nazirliyinin rəhbərliyinə yazdığı açıq tənqidi məktubla bağlıdır.

Oktyabrın 31-də Müsavat Partiyasının başqanı Arif Hacılının oğlu Orxan Hacılı saxlanılıb. Orxan Hacılıya qarşı noyabrın 1-də Cinayət Məcəlləsinin 263.1-ci (Yol hərəkəti və nəqliyyat vasitələrinin istismarı qaydalarını pozma – ehtiyatsızlıqdan zərərçəkmiş şəxsin sağlamlığına az ağır zərər vurulmasına səbəb olduqda) və 264-cü (Yol nəqliyyat hadisəsi yerindən qaçma) maddələri ilə cinayət işi açılıb, noyabrın 2-də isə Yasamal rayon Məhkəməsində barəsində 2 aylıq həbs qətimkan tədbiri seçilib. Dekabrın 19-da Yasamal Rayon Məhkəməsi Orxan Hacılının ev dustaqlığına buraxılması barədə qərar çıxarıb.

Dekabrın 4-də ictimai fəal İlhamiz Quliyev saxlanılıb. Dekabrın 6-da Yasamal Rayon Məhkəməsində onun barəsində 4 aylıq həbs qətimkan tədbiri seçilib. O, Cinayət Məcəlləsinin 234.4.3-cü maddəsi (Kütləvi şəkildə narkotik vasitələri hazırlama, istehsal etmə, əldə etmə, saxlama, daşıma, göndərmə və ya satma) ilə ittiham olunub.

Dekabrın 13-də ictimai fəal Möhyəddin Orucov saxlanılıb. Dekabrın 15-də Suraxanı Rayon Məhkəməsi ictimai fəala Cinayət Məcəlləsinin 234.4.3-cü (Qanunsuz olaraq narkotik vasitələri, psixotrop maddələri və ya onların prekursorlarını hazırlama, istehsal etmə, əldə etmə, saxlama, daşıma, göndərmə və ya satma, külli miqdarda törədildikdə) maddəsi ilə 4 aylıq həbs qətimkan tədbiri seçib.

**Dini inanclı şəxlərin həbsi**

2023-cü il yanvarın 27-də Azərbaycanın İrandakı səfirliyinə silahlı hücumdan sonra Azərbaycanda dini inanclıların kütləvi həbsi başlayıb. Bu həbslər bütün ölkə boyu aparılıb. Müsəlman Birliyi Hərəkatının (MBH) məlumatına görə, növbəti 3 ay ərzində təşkilatın 27 üzvü və əlavə 33 inanclı şəxs saxlanılıb. Onlar Cinayət Məcəlləsinin 234.4.3-cü (satış məqsədilə külli miqdarda narkotik maddə əldə etmə, daşıma, saxlama) maddəsi ilə ittihamı olunaraq barələrində həbs qəti-imkan tədbiri seçilib.

**İşçi Masası Həmkarlar İttifaqları Konfederasiyası üzvlərinin həbsi**

Avqustun 4-də İşçi Masası Həmkarlar İttifaqları Konfederasiyasının üzvü Elvin Mustafayev Cinayət Məcəlləsinin 234.4.3-cü (satış məqsədilə külli miqdarda narkotik əldə etmə, daşıma, saxlama) maddəsi ilə şübhəli şəxs qismində saxlanılıb.

Avqustun 11-də İşçi Masası Həmkarlar İttifaqları Konfederasiyasının daha bir üzvü Ayxan İsrafilov saxlanılıb. O, Cinayət Məcəlləsinin 234-cü (Qanunsuz olaraq narkotik vasitələri, psixotrop maddələri və ya onların prekursorlarını hazırlama, istehsal etmə, əldə etmə, saxlama, daşıma, göndərmə və ya satma) maddəsi ilə ittiham olunub.

Sentyabrın 20-də isə İşçi Masası Həmkarlar İttifaqları Konfederasiyasının sədri Afiəddin Məmmədovun saxlanılıb. O, Cinayət Məcəlləsinin 126.2.4-cü (ümumi təhlükəli üsulla, xuliqanlıq niyyətilə qəsdən sağlamlığa ağır zərər vurma), 228.4-cü (Qanunsuz olaraq qaz silahını, soyuq silahı, o cümlədən soyuq atıcı silahı əldə etmə, satma və ya gəzdirmə) və 221.3-cü (silah və ya silah qismində əşyadan istifadə etməklə xuliqanlıq) maddələri ilə ittiham olunub.

**Qubad İbadoğlunun həbsi**

İyulun 23-də iqtisadçı-alim, Azərbaycan Demokratiya və Rifah Partiyasının sədri Qubad İbadoğlu saxlanılıb. Ona qarşı Cinayət Məcəlləsinin 204.3.1-ci (saxta pul və ya qiymətli kağızlar hazırlama, əldə etmə və ya satma mütəşəkkil dəstə tərəfindən törədildikdə) maddəsi ilə ittiham irəli sürülüb.

Avqustun 8-də hüquq və iqtisadiyyat üzrə fəlsəfə doktoru, alim Fazil Qasımov Qubad İbadoğlunun işi ilə bağlı Türkiyədə saxlanılaraq Azərbaycana gətirilib. Fazil Qasımova qarşı Cinayət Məcəlləsinin 204.3.1-ci (saxta pul və ya qiymətli kağızlar hazırlama, əldə etmə və ya satma mütəşəkkil dəstə tərəfindən törədildikdə) maddəsilə ittiham irəli sürülüb.

**Tofiq Yaqublunun həbsi**

Dekabrın 14-də Müsavat Partiyasının və Milli Şuranın üzvü Tofiq Yaqublu saxlanılıb. O, dekabrın 15-də Nərimanov Rayon Məhkəməsində Cinayət Məcəlləsinin 178.3.2-ci (külli miqdarda ziyan vurmaqla dələduzluq) və 320-ci (saxta sənəd hazırlama və ya ondan istifadə) maddələrilə ittiham olunub və haqqında 4 aylıq həbs qətimkan tədbiri seçilib. Tofiq Yaqublu məhkəmədə onun həbsinin müxalif siyasi fəaliyyətinə görə baş tutduğunu bildirib.

**Jurnalistlərin həbsi**

Noyabrın 20-də AbzasMedia-nın direktoru Ülvi Həsənli həbs olunub. Həmin gün Bakı Şəhər Baş Polis İdarəsinin müstəntiqləri "Abzas Media"nın ofisində axtarış zamanı 40 min avro tapıldığını müəyyən edərək götürdüklərini bildiriblər. Ancaq Ülvi Həsənli pul vəsaitinin ona aid olmadığını, ittihamı qəbul etmədiyini və həbsinin jurnalist fəaliyyəti ilə bağlı olduğunu bildirib.
Noyabrın 21-də Xətai Rayon Məhkəməsi Ülvi Həsənlini Cinayət Məcəlləsinin 206.3.2-ci (Qaçaqmalçılıq-qabaqcadan əlbir olan bir qrup şəxs tərəfindən törədildikdə) maddəsi ilə ittiham edib və barəsində 4 ay həbs qətimkan tədbiri seçib.

Noyabrın 20-də AbzaasMedia-nın məkdaşı Məhəmməd Kekalov evindən mülki geyimli polis əməkdaşları tərəfindən aparılıb. Vəkili və ailəsi iki gün ərzində ondan məlumat ala bilməyib. Məhəmməd Kekalov Cinayət Məcəlləsinin 206.3.2-ci (Qaçaqmalçılıq-qabaqcadan əlbir olan bir qrup şəxs tərəfindən törədildikdə) maddəsi ilə ittiham edilib və barəsində 3 ay 29 gün müddətinə həbs qətimkan tədbiri seçilib.

Noyabrın 21-də AbzasMedia-nın baş redaktoru Sevinc Vaqifqızı (Abbasova) xarici səfərdən Bakıya dönərkən hava limanında saxlanılıb. Onun barəsində Cinayət Məcəlləsinin 206.3.2-ci (qaçalmalçılıq, qabaqcadan əlbir olan bir qrup şəxs tərəfindən törədildikdə) maddəsilə ittiham irəli sürülüb və 3 ay 29 gün müddətinə həbs olunub. Vaqifqızı bildirib ki, "bütün bu hadisələr" onun jurnalist fəaliyyəti və "Abzas Media"nın işi ilə bağlıdır.
Noyabrın 27-də "Kanal 13" internet televiziyasının rəhbəri Əziz Orucov Bakının Səbail rayon Polis İdarəsi tərəfindən Cinayət Məcəlləsinin 188.2-ci (Torpaq üzərində mülkiyyət, istifadə və ya icarə hüququnu pozma _ icarə hüququ olmadan torpaq sahəsi üzərində özbaşına tikinti və ya quraşdırma işləri aparma) maddəsi ilə şübhəli şəxs qismində saxlanılıb. Noyabrın 28-də Səbail

Rayon Məhkəməsi Əziz Orucovu 3 ay müddətinə həbs edib. Orucov ittihamları qəbul etmir, cinayət işini jurnalist fəaliyyəti ilə əlaqələndirib. Bildirib ki, onun əməllərində cinayət tərkibi yoxdur.

Noyabrın 30-da AbzasMedianın əməkdaşı, jurnalist Nərgiz Absalamova saxlanılıb. Dekabrın 1-də Xətai Rayon Məhkəməsi jurnalisti Cinayət Məcəlləsinin 206.3.2-ci (qaçalmalçılıq, qabaqcadan əlbir olan bir qrup şəxs tərəfindən törədildikdə) ittihamı ilə 3 ay müddətinə həbs edib.

Dekabrın 11-də "Kanal 11" internet televiziyasının direktoru, reportyor Teymur Kərimov saxlanılıb. Dekabrın 12-də Nərimanov Rayon Məhkəməsi jurnalist haqqında 4 aylıq həbs qətimkan tədbiri seçib. Teymur Kərimov Cinayət Məcəlləsinin 182.2.2-ci və 182.2.4-cü (hədə-qorxu ilə tələbetmə – xeyli miqdarda əmlak əldə etmək məqsədilə təkrar törədildikdə) maddələrilə ittiham olunub. Teymur Kərimov ittihamları qəbul etmir. O, bildirib ki, heç kimdən hədə-qorxu ilə pul istəməyib, həbsinin səbəbi jurnalist fəaliyyəti, hazırladığı video-reportajlardır.

Dekabrın 13-də araşdırmaçı jurnalist Hafiz Babalı saxlanılıb. O, Cinayət Məcəlləsinin 206.3.2-ci (qaçalmalçılıq, qabaqcadan əlbir olan bir qrup şəxs tərəfindən törədildikdə) maddəsi ilə ittiham olunub. Dekabrın 14-də Xətai Rayon Məhkəməsi Hafiz Babalı barəsində istintaq dövrü üçün 3 ay həbs qətimkan tədbiri seçib.

Dekabrın 22-də "Kanal-13" İnternet-televiziyası ilə əməkdaşlıq edən jurnalist Şamo Eminov həbs olunub. Cinayət Məcəlləsinin 206.3.2-ci (qaçalmalçılıq, qabaqcadan əlbir olan bir qrup şəxs tərəfindən törədildikdə) maddəsi ilə ittiham olunan Şamo Eminov barəsində 3 ay 5 gün müddətinə həbs qətimkan tədbiri seçilib.

### 2) *İnzibati qaydada həbs olunanlar*

2023-cü il ərzində siyasi motivlərlə inzibati qaydada həbs olunanalar sayı 39 nəfər olub.
Onlar İnzibati Xətalar Məcəlləsinin aşağıdakı maddələri üzrə ittiham olunaraq, saxlanılıblar:

a) İnzibati Xətalar Məcəlləsinin 510-cu (xırda xuliqanlıq) maddəsi - 21 nəfər,
b) İnzibati Xətalar Məcəlləsinin 535.1-ci (polisin qanuni əmrinə tabe olmama) maddəsi – 22 nəfər,
c) İnzibati Xətalar Məcəlləsinin 388-1.1-ci (İnternet informasiya ehtiyatının və onun domen adının sahibi və ya informasiya-telekommunikasiya şəbəkəsinin istifadəçisi tərəfindən internet informasiya ehtiyatında yayılması qadağan edilən informasiyanın yerləşdirilməsi, habelə belə informasiyanın yerləşdirilməsinin qarşısının alınması ilə bağlı qanunvericiliyin tələblərinin pozulması) maddəsi - 7 nəfər
d) İnzibati Xətalar Məcəlləsinin 528.1-ci (Məhkəmə və digər orqanların qərarlarının icrası ilə əlaqədar icra məmurunun tələblərinin yerinə yetirilməməsi) maddəsi – 1 nəfər

**İnizbati qaydada saxlanılan şəxslərin siyahısı:**

| Sıra | Adı və soyadı | Mənsubiyyət | İXM maddəsi | Həbs müddəti |
|---|---|---|---|---|
| 1 | Həsən Abbaszadə | MBH (Müsəlman Biriliyi Hərəkatı) | 510-cu maddə | 30 sutka |
| 2 | Nizami Əhməd | MBH (Müsəlman Biriliyi Hərəkatı) | 510-cu maddə | 30 sutka |
| 3 | İmran Məmmədli | MBH (Müsəlman Biriliyi Hərəkatı) | 510-cu maddə | 30 sutka |
| 4 | Tərlan Seyidov | MBH (Müsəlman Biriliyi Hərəkatı) | 510-cu maddə | 30 sutka |
| 5 | Rövşən Əliyev | MBH (Müsəlman Biriliyi Hərəkatı) | 510-cu maddə | 30 sutka |
| 6 | Telman Rəşidov | MBH (Müsəlman Biriliyi Hərəkatı) | 510-cu maddə | 30 sutka |
| 7 | Anar Hüseynov | AXCP (Azərbaycan Xalq Cəbhəsi Partiyası) | 510-cu və 535.1-ci maddələr | 30 sutka |
| 8 | Rövşən Səfərov | AXCP (Azərbaycan Xalq Cəbhəsi Partiyası) | 535.1-ci maddə | 30 sutka |
| 9 | Elnur Həsənov | AXCP (Azərbaycan Xalq Cəbhəsi Partiyası) | 510-cu və 535.1-ci maddələr | 30 sutka |
| 10 | Orxan Baxşılı | AXCP (Azərbaycan Xalq Cəbhəsi Partiyası) | 535.1-ci maddə | 30 sutka |
| 11 | Səhlədar İsgəndərli | AXCP (Azərbaycan Xalq Cəbhəsi Partiyası) | 510-cu və 535.1-ci maddələr | 25 sutka |
| 12 | Ceyhun Novruzov | AXCP (Azərbaycan Xalq Cəbhəsi Partiyası) | 510-cu və 535.1-ci maddələr | 30 sutka |
| 13 | Zaur Əhmədov | AXCP (Azərbaycan Xalq Cəbhəsi Partiyası) | 535.1-ci maddə | 30 sutka |
| 14 | Kənan Zeynalov | AXCP (Azərbaycan Xalq Cəbhəsi Partiyası) | 535.1-ci maddə | 25 sutka |
| 15 | Ramin Əhmədov | AXCP (Azərbaycan Xalq Cəbhəsi Partiyası) | 535.1-ci maddə | 30 sutka |
| 16 | Orzan Baxşılı | AXCP (Azərbaycan Xalq Cəbhəsi Partiyası) | 510-cu maddə | 20 sutka |
| 17 | Aydın Canıyev | Jurnalist | 388-1.1-ci maddə | 30 sutka |
| 18 | Vəli Şükürov | Fotobloger | 510-cu və 535.1-ci maddələr | 30 sutka |
| 19 | Vüqar Məmmədov | "Hürriyyət" qəzetinin baş redaktoru | 388-1.1-ci maddə | 30 sutka |
| 20 | Elnur Məmmədov | Ehtiyatda olan polkovnik | 388-1.1-ci maddə | 30 sutka |
| 21 | Nurlan Qəhrəmanlı | Jurnalist | 388-1.1-ci maddə | 30 sutka |
| 22 | Rüfət Muradlı | "Kanal 13" internet televiziyasının aparıcısı | 510-cu və 535.1-ci maddələr | 30 sutka |
| 23 | Elvin Mustafayev | İşçi Masası Həmkarlar İttifaqları Konfederasiyasının üzvü | 510-cu və 535.1-ci maddələr | 25 sutka |
| 24 | Afiəddin Məmmədov | İşçi Masası Həmkarlar İttifaqları Konfederasiyasının sədri | 528.1-ci maddə | 30 sutka |

| | | | | |
|---|---|---|---|---|
| 25 | Əmrah Təhməzov | İctimai fəal | 510-cu və 535.1-ci maddələr | 30 sutka |
| 26 | Qiyas İbrahim | İctimai fəal | 388-1.1-ci və 535.1-ci maddələr | 32 sutka |
| 27 | Nemət Abbasov | İctimai fəal | 535.1-ci maddə | 30 sutka |
| 28 | Əmrah Təhməzov | İctimai fəal | 388-1.1-ci maddə | 30 sutka |
| 29 | Emin İbrahimov | İctimai fəal, keçmiş diplomat | 388-1.1-ci maddə | 30 sutka |
| 30 | Emin Axundov | İctimai fəal | 510-cu və 535.1-ci maddələr | 30 sutka |
| 31 | Möhyəddin Orucov | İctimai fəal | 510-cu və 535.1-ci maddələr | 30 sutka |
| 32 | Elmir Abbasov | NİDA Vətəndaş Hərəkatı | 535.1-ci maddə | 20 sutka |
| 33 | Araz Əliyev | NİDA Vətəndaş Hərəkatının və III Respublika Platforması | 510-cu və 535.1-ci maddələr | 30 sutka |
| 34 | Hüseyn Məlik | ADR (Azərbaycan Demokratik və Rifah Partiyası) | 510-cu maddə | 20 sutka |
| 35 | Allahverdi Babayev | ADR (Azərbaycan Demokratik və Rifah Partiyası) | 535.1-ci maddə | 30 sutka |
| 36 | Vüsal Zeynalov | ADR (Azərbaycan Demokratik və Rifah Partiyası) | | 20 sutka |
| 37 | Hüseyn Məlik | ADR (Azərbaycan Demokratik və Rifah Partiyası) | 510-cu və 535.1-ci maddələr | 30 sutka |
| 38 | Məhərrəm Əkbərov | "İnqilabın Səsi" Platforması | 510-cu və 535.1-ci maddələr | 30 sutka |
| | | | | |

**Əlaqə:**

Telefon: (+994 70) 340 34 34
E-poçt: emc.az2001@gmail.com
Veb: www.smdtaz.org
Facebook: www.facebook.com/AZElections
Tvitter: SMDT_EMDS